# Qərbi Azərbaycana qayıdış haqqın zəfəri, tarixi ədalətin bərpası olacaq

**XIX əsrin əvvəllərində çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi məkrli demoqrafik siyasət xalqımızın tarixi yaddaşında dərin iz qoyub. Osmanlı və İran ərazilərindən on minlərlə erməninin Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz doğma yurdlarında sıxışdırılması prosesi başlandı. Bu xain planın əsasında Azərbaycanın əzəli torpaqlarında etnik tərkibi dəyişmək məqsədi dayanırdı. Əslində, proses gələcəkdə baş verəcək soyqırımların və kütləvi qovulmaların ilk addımları idi. XX əsrin əvvəllərində isə bu siyasət daha amansız xarakter aldı. 1905-1907-ci illərdə baş verən erməni-müsəlman toqquşmaları azərbaycanlıları qorxutmaq, torpaqlarını tərk etməyə məcbur etmək üçün məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmənin başlanğıcı idi. Bu qanlı siyasətin ən dəhşətli anları 1918-1920-ci illərdə yaşandı. Həmin illərdə minlərlə dinc azərbaycanlı sakin yalnız etnik mənsubiyyətinə görə amansızcasına qətlə yetirildi. Onlarla Azərbaycan kəndi tamamilə məhv edildi, yüz minlərlə insan öz doğma yurd-yuvasından didərgin salındı, qaçqına çevrildi. Zəngəzur, Göyçə, İrəvan və digər tarixi Azərbaycan torpaqları azərbaycanlılardan təmizlənərək erməniləşdirildi. Bu ərazilərdə məhv edilən abidələr, dağıdılan məscidlər, viran qoyulan kəndlər Azərbaycan xalqının mədəni, tarixi irsini silmək cəhdləri idi. Ermənilərin "tarix yaratmaq" iddiası məhz bu mədəni soyqırımla müşayiət olunurdu.**

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Zaqafqaziyanın sovetləşdirilməsi ermənilər üçün yeni fürsətlər yaratdı. Sovet hakimiyyətinin himayəsi altında Zəngəzur və digər Azərbaycan torpaqları Ermənistan SSR-in tərkibinə verildi. Minilliklər boyu o torpaqlarda qurulmuş kəndlər, şəhərlər, tarixi-mədəni abidələr bu prosesin qurbanına çevrildi. Bütün bu cinayətlər isə "sovetlərarası dostluq" adı ilə ört-basdır edilirdi. Tarix göstərir ki, azərbaycanlılara qarşı yürüdülən etnik təmizləmə siyasəti bir anda baş verməmiş, mərhələ-mərhələ, planlı şəkildə reallaşdırılmışdır. XX əsrin ortalarında Azərbaycan xalqına qarşı daha bir ədalətsizlik 1948-1953-cü illərdə həyata keçirilən kütləvi deportasiya siyasətidir. Bu dövrdə bütöv bir xalqın mədəni, mənəvi varlığına, onun tarixi yaddaşına ağır zərbə vuruldu. Budəfəki repressiya prosesinə SSRİ rəhbərliyi birbaşa siyasi dəstək verdi. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti tərəfindən qəbul edilmiş "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərar xalqımıza qarşı növbəti etnik təmizləmə idi. 1948-1953-cü illər arasında bu qərarın həyata keçirilməsi zamanı 150 mindən çox azərbaycanlı zorla öz doğma torpaqlarından çıxarıldı. Onların çoxu Zəngəzur, Göyçə mahalı, İrəvan və Ermənistan SSR-in digər bölgələrindən Azərbaycanın Kür-Araz ovalığına köçürüldü. Köçürülmə zamanı on minlərlə insan ağır şəraitdə, soyuqda, aclıq və səfalət içində dünyasını dəyişdi.

Bu "dəyişdirilmiş demoqrafiya siyasəti" bir çox azərbaycanlı ailəsinin gələcəyini qaraltdı. Tarixi torpaqlarından qoparılan bu insanlar əzablı mühacirət həyatı yaşamağa məhkum oldular. Yerləşdikləri Kür-Araz ovalığı həmin dövrdə bataqlıq və səhralıq ərazi idi. Bir çox ailələr bu ağır şəraitə uyğunlaşa bilmədi, köçürülmə prosesi həm mənəvi, həm də fiziki cəhətdən xalqımıza ağır zərbə oldu. Çünki onlar doğma evlərini, ata-baba ocaqlarını, nəsillər boyu yaşadıqları torpaqları itirdilər. Ermənilər boşalan kəndlərə - azərbaycanlılara məxsus evlərə sahibləndilər. Vaxtilə azərbaycanlıların əksəriyyət təşkil etdiyi qədim türk şəhəri olan İrəvan 1948-1953-cü illərdən sonra etnik tərkibi tamamilə dəyişdirilərək erməniləşdirildi. Bu dövrdə hüquq normaları tamamilə pozuldu. Soydaşlarımıza mülk davası açmaq, etiraz bildirmək, öz haqlarını müdafiə etmək hüququ verilmədi. SSRİ-nin qanunvericilik çərçivəsində "köç" kimi təqdim edilən bu proses, əslində açıq-aşkar deportasiya, repressiya siyasəti idi. Azərbaycanlıların yaşadıqları ərazilərdə onlara təzyiqlər göstərildi, mülkləri əlindən alındı, hüquqları kobudcasına pozuldu. Deportasiya prosesi SSRİ-də "xalqlar dostluğu" mifinin tamamilə puça çıxdığını nümayiş etdirdi.

Erməni millətçilərinin 1950-ci illərdən etibarən növbəti hədəfi azərbaycanlı kəndlərinin adlarını dəyişdirmək oldu. Qədim toponimlər - əsrlər boyu insanların yaddaşında, nəğmələrdə, bayatılarda yaşayan kənd, dağ, çay adları dəyişdirilərək erməni adları ilə əvəz edildi. Məsələn, Göyçə gölü "Sevan", Dərəçiçək kəndi "Nor Gehi", Aşağı Şorca "Nerkin Şorja" adlandırıldı. Bu ad dəyişiklikləri xalqın tarixinə qarşı yönəlmiş təcavüz, mənəvi soyqırımın daha bir forması idi. Toponimlərin dəyişdirilməsi ilə ermənilər öz saxta "tarix"lərini yaratmağa çalışırdılar. Onlar düşünürdülər ki, adları dəyişməklə xalqın yaddaşını silmək mümkün olacaq. Anti-Azərbaycan təbliğatı hərbi və siyasi təcavüz üçün zəmin yaratdı. Xüsusilə 1980-ci illərin ortalarından etibarən bu siyasət daha da gücləndi. Ermənilər Sovet İttifaqının süqutu ərəfəsində yaranmış siyasi boşluqdan istifadə edərək Qarabağ məsələsini gündəmə gətirdilər. Bu iddiaların arxasında isə azərbaycanlıları Ermənistan ərazisindən tamamilə çıxarmaq planı dayanırdı. Tarix sübut etdi ki, bu plan "yandırılmış torpaq" siyasətinin tərkib hissəsi idi. Bütün deportasiyalara, məhrumiyyətlərə və repressiyalara baxmayaraq, 1988-ci ilə qədər azərbaycanlılar hələ də Ermənistan SSR-in ərazisinin 25 faizində - 7,5 min kv.km ərazidə yaşayırdılar. Ermənilərin Azərbaycana qarşı məkrli planlarının davamı Qarabağda separatizm dalğası yaratmaq oldu. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə başlayan proses Azərbaycan xalqının etirazı ilə qarşılandı. Sonrakı dövrlərdə Ermənistandakı azərbaycanlıların demoqrafik göstəricilərində dəyişikliklər meydana çıxdı. İrəvan şəhərində azərbaycanlıların ümumi sayı aşağı enməkdə idi. 1979-cu ildə Ermənistanda ümumi əhalinin 5,3 faizini təşkil edən 160.841 nəfər azərbaycanlı yaşayırdısa, bu göstərici 1989-cu ildə 84.860-a və ya 2,6 faizə endi. Azərbaycanlıların Ermənistandan 1988-1989-cu illər deportasiyası ilə Ermənistanda azərbaycanlıların yaşamasına son qoyuldu. Son olaraq, Nüvədi kəndi 1991-ci ilin avqust ayında boşaldıldı.

Bu cinayətlərə 1997-ci il dekabrın 18-də ümummilli lider Heydər Əliyev tarixi qiymət verdi. Dövlət başçısının imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman ədalətin bərpası idi. Fərmanda deyilir: "Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır". Sənəddə əks olunan həqiqətlər uzun illər ərzində SSRİ-nin təzyiq maşını və erməni şovinist dairələrinin təbliğatı nəticəsində gizlədilmişdir. Ən acı həqiqət isə odur ki, minlərlə azərbaycanlı - qocalar, qadınlar, uşaqlar, xəstələr bu deportasiya zamanı həyatını itirib. Bu məcburi köç mənəvi genosidin ən ağır forması idi. Lakin bu prosesin daha bir utancverici tərəfi də var ki, o dövrdə Azərbaycanın rəhbərliyində olan bəzi şəxslər də öz xalqının taleyinə zidd mövqe sərgilədi. Onların səssizliyi və bəzən açıq-aşkar razılığı ilə minlərlə azərbaycanlı öz doğma evindən didərgin düşdü.

Bu gün İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbə bizi Qərbi Azərbaycana qayıdışa daha da yaxınlaşdırır. Ulu öndərin siyasi irsini uğurla davam etdirən Prezident İlham Əliyev Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı məsələsini daim gündəmdə saxlayır. Ölkə başçımızın iki il öncə doğum günündə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşməsi və orada söylədiyi fikirlər bunu bir daha təsdiqləyir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Hər kəsin öz doğma yurdunda yaşamaq hüququ var. Bu baxımdan, Qərbi azərbaycanlıların öz torpaqlarına qayıdışı ədalətin bərpasıdır. Azərbaycan dövləti bu tarixi missiyanı həyata keçirmək üçün konkret addımlar atmağa başlayıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və həm xarici, həm də daxili siyasətdəki uğurları bu missiyanı reallaşdırmaq üçün möhkəm zəmin yaradır. Necə ki, 2020-ci ildə 30 illik işğalın sona çatması ilə Qarabağa qayıdış başladı, indi də Qərbi Azərbaycan həsrətinin bitməsi üçün yeni bir yol açılır. Qərbi Azərbaycan İcması da bu istiqamətdə aktiv fəaliyyət göstərir. İcma tərəfindən indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə Qayıdış konsepsiyası hazırlanıb qəbul edilib. Sözügedən sənəd indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün icmanın həyata keçirdiyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyənləşdirir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**







## QƏRBİ AZƏRBAYCAN İCMASININ BƏYANATI

**İsveçrə Parlamentinin aşağı palatasında Azərbaycan əleyhinə qəbul edilmiş qətnamədə yer almış şər-böhtan, hansısa "sülh forumunun çağırılması" kimi cəfəng çağırışlar ona səs verənlərin hər gün Zəngəzur dağlarından Azərbaycan tərəfə binoklla baxan təxribatçı siyasətçilər və diplomatlarla birlikdə hərəkət etdiyini göstərir.**

**Qətnaməni dəstəkləyən deputatların ermənilərin qayıdışının vacibliyini qabardaraq biz Qərbi azərbaycanlılara münasibətdə Ermənistana çağırış etməməsi, etnik və dini təəssübkeşliyin girovuna çevrilməsi, XX əsrin əvvəllərində baş verdiyi iddia edilən uydurma hadisələrə istinad etmələri, Azərbaycana qarşı xüsusilə şanlı Vətən müharibəsindən sonra Qərbdə bəziləri tərəfindən aparılan "səlib yürüşü"nə qoşulmaları ikrah doğurur.**

**Regiondan uzaqda yerləşən, məsələlərin mahiyyətini dərk etməyən, diletant, irqçi mühakimələr yürüdən dairələr Azərbaycanın suverenliyinə qəsddən, onun daxili işlərinə müdaxilədən və qondarma təşəbbüslərdən əl çəkməlidir.** ■